**“Ekologiya” ixtisası üzrə YDA sualları**

## Ekoloji tədqiqat metodları

1. Elmi metod nədir və hansı üsullara bölünür? Üsulları şərh edin.
2. Ekoloji tədqiqatların aparılmasında fiziki, kimyəvi üsullar və riyazi modelləşmənin xüsusiyyətlərini şərh edin.
3. Bioekoloji tədqiqat metodları. Fizioloji metodların ekoloji tədqiqatlarda əhəmiyyətini izah edin.
4. Geoekoloji tədqiqatların aparılması üsullarının xüsusiyyətlərini izah edin. Ekoloji tədqiqatlarda problemləri məzmununa, təşəkkül mənbələrinə və miqyasına görə hansı hissələrə və siniflərə bölürlər?
5. Geokimyəvi tətqiqatlar zamanı ətraf mühitin kimyəvi elementlər vasitəsi ilə çirklənməsinin mərhələlərini müəyyən edin. Geokimyəvi fon, sınaq və s. məqsədlərini fərqləndirin.
6. Radiodalğa, elektrokəşfiyyat, seysmoakkustik, qravimetrik, maqnit çəkilişləri və radiometrik (radioaktiv) metodlar geofiziki tədqiqatların əsası kimi səciyyələndirin. Bu metodların ümumi xüsusiyyətlərini izah edin.
7. Hidrogeoloji xəritələşmənin rolu və əhəmiyyəti nədir? Hidrogeoloji buruqların qazılması metodlarını şərh edin.
8. Geomorfoloji və geoloji tətqiqatların rolu və əhəmiyyətlərini aydınlaşdırın.
9. Hidrometeoroloqiya nədir? Onun əsas vəzifələri və məsələlərini, müşahidə sahələrini xarakterizə edin.
10. Səhralaşma, meşələrin qırılması, təbii mühitə texnogen təsirlərin müəyyənləşdirilməsində və kosmik informasiyanın əldə olunmasında aerokosmik tədqiqatların rolu və əhəmiyyətini aydınlaşdırın.
11. Geoekoloji xəritəçəkmədə tədqiqat işləri hansı dövrlərə bölünür? Həmin dövrləri xarakterizə edin.
12. Bioindikasiyanın növlərini, metodlarını və tədqiqat mərhələlərini açıqlayın.
13. Təbii mühitin modelləşdirilməsi nədir? Ekoloji modellər və onların əsas elementlərini şərh edin.

14. Ətraf mühitin keyfiyyətinə qlobal nəzarət və fon monitorinqi nədir? Ekoloji nəzarətin funksiyalarını aydınlaşdırın.
15. Beynəlxalq ekoloji əməkdaşlığın inkişaf tarixi və əsas məqsədlərini şərh edin.

**İnsan ekologiyası və dayanaqlı ınkışaf**

1. Meqa səviyyədə sosial-ekoloji sistemin komponentlərini izah edin.
2. Sosial qanunların təsnifatını səciyələndirin.
3. Dünya əhalisinin regionlar üzrə artımını səciyyələndirin.
4. Atmosferdə olan asılı hissəciklərin saglamlıga təsirini izah edin.
5. Yerin tərkindən istifadəyə görə ödənişləri səciyyələndirin.
6. Davamlı inkişaf və bioloji müxtəlifliyin  saxlanılması problemlərini şərh edin.
7. İnsan populyasiyası və dayanaqı inkişaf məsələlərini şərh edin.
8. Radioaktivliyin əhali saglamlıgına təsirini dəyərləndirin.
9. Qlobal ekoloji problemlərin təbii komponentlərə təsiri və onların mühafizə istiqamətlərini şərh edin.
10. Metroid cirklənməsini geniş şərh edin.
11. İqtisadi inkişaf modelləri  və kosmosun mənimsənilməsi haqqında ətraflı izah verin.
12. Azərbaycanın  torpaq və  su resurslarının istifadə problemlərini təhlil edin.
13. Ekoloji idarəetmədə istifadə olunan standartları səciyyələndirin.
14. Ekoloji  monitorinqin  əsas funksiyalarını şərh edin.
15. Beynəlxalq ekoloji müqavilələr haqqında izah verin.

**Ekoloji monitorinq**

1. Prioritetlərin  müəyyən  edilməsi  nəyə əsaslanır və hansı meyarlar üzrə aparılır? Meyarları şərh edin.
2. Müşahidə nöqtələrinin xarakterik yerini müəyyənləşdirərkən hansı  parametr qrupları nəzərə alınır? Şərh edin.

3. Azərbaycanda yerüstü su obyektlərinin çirklənməsinin vəziyyəti haqqında lazımi və real informasiyanın toplanması ilə bağlı monitorinq məntəqələri neçə kateqoriyaya bölünür? İzah edin.
4. Azərbaycanda bioloji ehtiyatların monitorinqi və onu aparılması qaydalarını izah edin.
5. Radiozond və raketzondlaması deyəndə nə başa düşülür? İzah edin.
6. Yer hidrosferinin vəziyyətinə nəzarətin metod və vasitələri, su ölçən stansiyalarda su səviyyəsinə nəzarətdən bəhs edin. Profiloqraf və onun növlərini izah edin.
7. Kimyəvi maddələrin torpaqda yol verilən qatılıq həddi və əsas zərərlilik göstəricisini izah edin.
8. Qazoxromatoqrafik, Potensiometrik, Polyaroqrafik metodların işləmə prinsiplərini izah edin.
9. Qaz çirkləndiricilərinin tərkibini müəyyənləşdirmək üçün birdəfəlik nümunə götürmə təcrübədə neçə yolla aparılır? Şərh edin.
10. Məcburi proqram üzrə analiz üçün seçilən su nümunələrinin miqdarı ayrı-ayrı su axarlarının su reyimlərinin xüsusiyyətlərindən asılı olaraq necə dəyişir? İzah edin.
11. Kənd təsərrüfatı tərəfindən istifadə edilən sahələrin seçilməsində ilkin işçi sənəd kimi hansı miqyaslı topoqrafik xəritə əsas sayılır? Səciyyəsini verin.
12. Biomonitorinqin xüsusi formaları hansılardır? Şərh edin.
13. Havanın çirklənməsinin bioindikasiyası dedikdə nə nəzərdə tutulur? Nümunə əsasında izah edin.
14. Su ekosistemlərinin bioindikasiyası dedikdə nə nəzərdə tutulur? Nümunə əsasında izah edin.
15. Müasir beynəlxalq ekoloji əməkdaşlıq sisteminin əsas istiqamətləri dedikdə nə nəzərdə tutulur? Nümunə əsasında izah edin.

**Sənaye ekologiyası**

1. Ortamüddətli perspektivdə sənaye sahəsində dövlət siyasətinin əsas məqsədlərini və qeyri-neft sektorunun inkişafı istiqamətində keçiriləcək tədbirlər planını izah edin.
2. Ekologiya termininin necə meydana gəldiyini izah edin.
3. Filizçay kolçedan–polimetal qrupu yataqlarının respublikanın dağ-mədən sənayesinin inkişafındakı önəmini izah edin.
4. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində “yaşıl enerji” zonasının yaradılması prosesi necə həyata keçirilir? Nümunə əsasında izah edin.
5. Müxtəlif növ sənaye tullantıları içərisində birinci yer tutan tullantıların yaranma mənbələrini şərh edin.
6. Azərbaycanda maşınqayırma sənaye sahəsinin inkişafını stimullaşdıran prosesləri qeyd edin.
7. Sulfat turşusunun istehsalının necə həyata keçirildiyini izah edin.
8. Ayrı-ayrı bitki növlərinin, bitki birliklərinin və heyvanlar aləminin mühafizəsi məsələlərini izah edin.
9. Dünyada yeyinti sənayesi məhsullarının ixracatını ölkələr üzrə nümunələrlə izah edin.
10. Yanacaq energetika kompleksinə elektroenergetika da daxil olmaqla təhlilinə nələr aiddir? Əsaslandırın.
11. Respublika ərazisində taxılçılıq və bostançılığın inkişafını müqayisəli təhlil edin.
12. Tullantısızlıq kriteriyasını nümunələr əsasında izah edin.
13. Ətraf mühit problemləri yaradan qazların müəssisələr üzrə miqdarını stasionar müşahidələrin nəticələri əsasında təhlil edin.
14. Plastik kütlə materialın istehsalında alınan tullantıların təkrar emalı və utilizasiyası üsulunu izah edin.
15. Ətraf mühitin mühafizəsi ilə əlaqədar olaraq fəalliyyət göstərən beynəlxalq təşkilatların rolunu və əhəmiyyətini izah edin.

**Ümumi ekologiya**

1. Ekologiyanın predmeti və vəzifələrini izah edin.
2. Ekologiyanın inkişaf tarixini təhlil edin.
3. Ekoloji metodlar haqqında müqayisəli izah verin.
4. Ümumi ekologiyanın əsas bölmələrini izah edin.
5. Ekoloji təhsil və tərbiyənin təbiəti mühafizə problemlərinin həllindəki rolunu və ekoloji əxlaq prinsiplərini praktiki nümunələr əsasında izah edin.
6. Canlı həyatın yaranması hipotezləri haqqında izah verin.
7. Müasir təsəvvürə görə həyatın əmələ gəlməsi hansı mərhələlərdən keçmişdir? Əsaslandırın.
8. Canlı təbiətin təşkil olunma səviyyələrini səciyyələndirin.
9. Molekulyar-genetik səviyyə ilə orqanizm səviyyəsinin fərqlərini izah edin.
10. Canlı orqanizmlərin qarşılıqlı əlaqələrindən bəhs edin. Biosfer səviyyəsini izah edin.
11. Biosfer və onun quruluşundan bəhs edən V.İ.Vernadski təlimi haqqında izah verin.
12. Biosferin maddi əsasını təşkil edən maddələr haqqında izah verin.
13. Canlı maddə və onun biosferdə əsas funksiyalarının izahını verin.
14. V.İ.Vernadskinin təliminə əsasən müəyyən olunmuş biosferin sərhədlərini səciyyələndirin.
15. Canlı maddənin mühityaratma funksiyaları nəticəsində təbii mühitdə baş verən mühüm hadisələri müqayisəli təhlil edin.